BAKI DÖVLƏT UNİVERSİTETİ
İLAHİYYAT FAKÜLTƏSİNİN

# ELMİ MƏCMUƏSİ

№ 08 (17) SENTYABR (EYLÜL) 2007

# *Sadırlarda ve Satırlarda*

# *Abdullah Kahraman*

## MÜƏLLİMLİKLƏ ALİMLİYİ ÖZÜNDƏ BACARIQLA BİRLƏŞDİRƏN İNSAN

Mən, Abdullah Qahramanı 2004-ci ildən tanıyıram. Abdullah Qahraman 2004-2007- ci illərdə BDU-nun ilahiyyat fakültəsində mənim müavinim olaraq çalışmışdır. 1987-1991- ci illərdə Türkiyənin Mərmərə Universitetində təhsil alan Abdullah Qahraman orada Saleh Tuğ, Xeyrəddin Karaman, Bəkir Topaloğlu, Yaşar Nuri Öztürk, Cəlal Erbay, İbrahim Kafi Dönməz kimi görkəmli alimlərdən dərs almış, islam elmlərinə, xüsusilə fiqhə yaxşı yiyələnmişdir. İslam hüququ üzrə magistr və doktorluq dissertasiyaları müdafiə etmiş Abdullah Qahraman tezliklə bir islamşünas kimi qardaş Türkiyədə tanınmışdır. 2004-cü ildə dosent doktor Təyyar Altıkulac vasitəsilə Abdullah Qahramanla tanış olduqda o elə ilk baxışdan mənə müsbət təsir bağışladı. Mən onun çox mehriban, səmimi və qılıqlı bir adam olduğunu sezdim. Sonralar mən onunla yaxından dostlaşdım və bu dostluq indi də davam edir.

Hər şeydən əvvəl onu qeyd etmək istəyirəm ki, Abdullah Qahraman yaxşı müəllimdir. O, tələbələrlə tez dil tapan, auditoriyanı tez ələ ala bilən bacarıqlı bir pedaqoqdur. Pedaqoji fəaliyyətdə Abdullah bəylə mənim bir çox cəhətlərim uyğun gəlir. Tələbənin qayğısına qalmaq, onunla ünsiyyət qurmaq, onun daxili aləminə nüfuz edə bilmək, qiymət məsələsində tələbənin mənafeyi mövqeyindən çıxış etmək, tələbə ilə bir şəxsiyyət kimi davranmaq, onun istək və arzularını imkan daxilində nəzərə almaq hər bir müəllimin vəzifəsi, peşə borcudur. Lakin təəssüf ki, bu ümdə keyfiyyətlər müəllimlərin hamısında toplu şəkildə nəzərə çarpmır. Abdullah bəydə isə bu keyfiyyət kompleks şəkildə mövcuddur. Buna görə də o qısa bir müddət ərzində BDU ilahiyyat fakültəsi tələbələrinin hüsn- rəğbətini qazandı, onların sevimlisinə çevrildi.

Abdullah bəy eyni zamanda qüvvətli alimdir. Onun islam hüququ, islam hüquq fəlsəfəsi, islam hüquq tarixi sahəsində apardığı araşdırmalar həm qardaş Türkiyədə, həm də Azərbaycanda islamşünasların

geniş rəğbətini qazanmışdır. Abdullah bəy islam və qadın mövzusunda da maraqlı yazılar müəllifidir.

Abdullah bəy Bakıda fəaliyyət göstərdiyi üç il ərzində cəfəri məzhəbi fiqhi ilə də maraqlanmış, öz mühazirələrində şiə fiqhinə geniş yer ayırmış, fiqh üsulunun və füruunun tədrisində beş məzhəbin prinsiplərini əsas götürmüşdür ki, bu da, zənnimcə, islam hüququnun dolğun, əhatəli şəkildə öyrənilməsində ən ümdə məsələdir. Onun Azərbaycan dilində nəşr olunmuş «Fiqh üsulu» (Bakı, 2007) kitabı bu baxımdan çox faydalı bir dərslikdir. Onu da qeyd etmək istəyirəm ki, Adbullah bəy mənimlə birlikdə islam məzhəblərinin yaxınlaşdırılması barəsində ayrıca məqalə yazmış və bu məqalə Azərbaycanda geniş maraq doğurmuşdur.

Abdullah bəy Bakıda yaşadığı müddət ərzində yerli camaatla qaynayıb qarışmış, necə deyərlər bakılılaşmışdır. O, ölkəmizin dini-ictimai həyatında fəal iştirak etmiş, kütləvi informasiya vasitələrilə islam dini barəsində maraqlı çıxışlar etmiş, respublikamızın müxtəlif bölgələrində keçirilən dini tədbirlərə müntəzəm olaraq qatılmışdır.

Abdullah bəy həm də yaxşı natiqdir. Bakıda Peyğəmbərimizin (s.ə.s) mövludu, müxtəlif dini mövzularda keçirilən konfranslarda yüksək bəlağət, gözəl diksiya ilə etdiyi alovlu çıxışlar onu dinləyənlərin indiyə qədər qulağındadır.

Abdulla bəyin gözəl ailəsi var. Peyğəmbərimizin buyurduğuna görə, üç qız atası cənnətlikdir. Abdullah bəy isə dörd qız, bir oğlan atasıdır.

Mən dostum Abdullah bəyi bağrıma basıb öpür, ona uzun ömür, möhkəm can sağlığı, ailə səadəti, yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

Vasim Məmmədəliyev
BDU- nun İlahiyyat fakültəsinin dekanı,
akademik, əməkdar elm xadimi

## YENİDƏN ĞÖRÜŞMƏK ÜMİDİ İLƏ!

Həyatda elə insanlar var ki, onlarla uzun müddət təmasda olsan da gözdən uzaqlaşan kimi unudulub yaddan çıxırlar. Amma elə insanlar da var ki, lap qısa müddətdə onlarla ünsiyyətdə olduqdan sonar yaxında və ya uzaqda olmalarına baxmayaraq insanın xatirində həmişəlik həkk olunub qalırlar. Dostumuz Abdulla Kahraman da bu ikinci qəbil insanlardandır. O, hazırda bizdən uzaqda – doğma vətəni Türkiyədə olsa da biz onu tez-tez yada salır, onun xeyirxah işlərini və gözəl xüsusiyyətlərini hələ də xatırlayırıq.

Doktor Abdulla Kahramanı mən 2004-cü ildən, yəni Türkiyənin Sivas şəhərinin Cumhuriyyət universitetindən Türkiyə Diyanət Vəqfi xətti ilə BDU – nun İlahiyyat fakültəsinə dekan yardımçısı kimi gəldiyi vaxtdan tanıyıram. Elə ilk gündən o, fakültənin kollektivi ilə çox səmimi və mehriban münasibətlər qura bildi. Sanki o, uzun illər idi ki, bu fakültənin əməkdaşları ilə tanış idi. Qısa müddət ərzində o, həm müəllim yoldaşlarının, həm də tələbələrin böyük hörmətini qazanmağa nail oldu. O, hamı ilə, necə deyərlər, ümumi dil tapa bilmişdi: böyüklə böyük, kiçiklə kiçik kimi rəftar edirdi. Bir dekan yardımçısı kimi işlərinin çox olmasına baxmayaraq, tələbələrlə görüşüb söhbət etməyə, onlara lazımi köməklik göstərməyə də vaxt tapırdı. Buna görə də tələbələr ona bir müəllim olmaqla yanaşı, həm də bir böyük qardaş gözü ilə baxırdılar və bütün dərd-sərlərini onunla bölüşməkdən çəkinmirdilər. Ona etibar edirdilər, onunla məsləhətləşirdilər. O da öz növbəsində onlardan heç nəyi əsirgəmirdi və onlardan ötrü əlindən gələni edirdi.

Abdulla “hoca” cavan olmasına baxmayaraq çox geniş dünyagörüşünə və dərin biliyə malik bir insandır. Onun söhbətlərinə qulaq asdıqda onun nə qədər böyük hafizəyə və dolğun məlumata malik olduğuna adam heyran olurdu. Məhz bu xüsusiyyətlərə və insanlarla xoş rəftarına görə onunla bir-iki dəfə görüşüb söhbət edənlər ona böyük ehtiram və sayqı göstərirdilər.

Abdulla müəllim gözəl insan olmaqla bərabər həm də istedadlı alimdir. Fakültəmizdə çalışdığı müddətdə onun çap etdirdiyi kitablar və məqalələr

həqiqətən də onun öz ixtisasını gözəl bildiyini göstərməklə ynaşı həm də onun zəhmətkeş bir tədqiqatçı olduğuna dəlalət edir.Buna görə də onun əsərləri öz sanbalı və dəyəri ilə seçilir.

Bütün bunlardan əlavə Abdulla bəy eyni zamanda qayğıkeş bir ailə başçısıdır. Onun böyük bir ailəsi vardır. Beş övlad atasıdır Abdulla bəy. Onların qayğısına qalmaqla bərabər həm də səmərəli elmi işlə məşğul olmaq həqiqətən çox çətindir və əsil qəhrəmanlıqdır. Buna görə də Abdulla bəy "Qəhrəman" adına tam layiqdir.

Ona möhkəm cansağlığı, ailə səadəti və elmi uğurlar arzu edirəm.

Yenidən görüşmək ümidi ilə!

Hörmətlə:

**F.e.n., dos. Malik Qarazadə**

## UNUDULMAZ BİR DOST...

Abdulla müəllim gözəl mütəxəssis, böyük alim bacarıqlı təşkilatçıdır. Azərbaycanda İlahiyyat fakültəsinin dekan müavini işlədiyi müddətdə fakültənin indiyə qədərki ən ağır işlərini gördü. Fakültənin yeni binasının hazırlanması, təchizatı və təhvil verilməsi məhz Abdulla müəllimin üzərinə düşdü.

Abdulla müəllim təcrübəli pedaqoqdur. Tələbə onun dərsində yorulmur. Dərs əsnasında mövzu ilə bağlı elə maraqlı bir əhvalat danışır ki, ən avara tələbə də istəmədiyi halda mövzunu öyrənmiş olur. Nəticədə tələbə həm müəllimdən diqqətini ayıra bilmir, həm yorulmur, həm də mövzunu mənimsəyir.

Abdulla müəllim sözünə bütöv və comərd insandır. Bir əli ağzında söz verdisə digər əli (....) sözünə əməl etməkdədir.

Abdulla müəllim yaxşı insandır. Sözümü böyük Azərbaycan mütəfəkkiri Nəsrəddin Tusinin kəlamı ilə bitirmək istəyirəm. Pislik edib ləzzət alsan , ləzzət gedər ortada pislik qalar. Yaxşılıq edib əziyyət çəksən, əziyyət gedər ortada yaxşılıq qalar. Abdulla müəllim də yaxşılıq üçün əziyyətə qatlanan insanlardandır.Ümid edirəm ki, elm və həyat yolları bizi tez-tez görüşdürəcəkdir.

**f.e.n. Süleymanov Salman**

## DƏYƏRLİ ALİM, GÖZƏL İNSAN, ƏZİZ DOST

Professor Abdullah Kahraman Türkiyə elmi mühitində yetişmiş dəyərli bir bir elm adamıdır. Onun bir alim kimi yetişməsində bir neçə önəmli faktor başlıca yer tutur. O, hər şeydən öncə dindar bir ailədə dünyaya göz açmış, valideynlərinin imanlı həyatı, örnək şəxsiyyəti, gözəl nəsihətləri, sevə-sevə verdikləri din bilgiləri onun könlündə uca Allah (c.c) və mübarək peyğəmbər sevgisi yaratmışdır. Daha çox öyrənmək, daha dərindən tanımaq, insanların könlünə uca Allahın (c.c) sevgisini yerləşdirmək üçün kitaba, məktəbə, oxuyub öyrənməyə böyük həvəs göstərmiş, insanın və cəmiyyətin inkişafının ancaq elmə bağlı olduğunu anlayaraq elmə yönəlmişdir.

Abdullah Kahraman islam elmləri içərisində öz yeri olan, alimdən dərin bilik, güclü məntiq, ağıl, mühakimə və qərar vermək istedadı tələb edən fiqhi seçmişdir. O, bu elmi dərindən öyrənmək üçün bütün elmi qaynaqları oxumuş, araşdırmış və ciddi nəticələr çıxarmışdır. Onun içərisində olduğu elmi mühit, dəyərli xocaları elmi qabiliyyətinin üzə çıxmasına yol açmışdır, ərəb, ingilis, fars dillərini bilməsi elmi imkanlarını artırmışdır. Abdullah Kahraman öz elmi sahəsində dünya alimlərinin yazdığı elmi əsərləri də oxumuş, müasir dünya hüquq elminin başlıca əsərlərini mütaliə etmişdir. Ümumiyyətlə, professor Abdullah Kahraman qapalı elmi anlayışları rədd edirdi, o, dünya alimləri ilə sıx təmas qurmağın tərəfdarı idi və milli elmin inkişafında çoxtərəfli əlaqələrin önəmli rolunu hər zaman vurğulayırdı. Bütün bunların nəticəsində o, gözəl bir alim kimi yetişdi və yazdığı elmi əsərlər fiqh elmini zənginləşdirdi.

Abdullah Kahraman kitabı, kitab oxumağı, alimi, elmi çox sevir, zəngin kitabxanası ilə fəxr edir. O, bu dəyərli kitabxananı illər boyu məhdud maddi imkanları ilə aldığı kitablar hesabına yaratmışdır. O, hər zaman kitab axtarırdı, çox oxuyurdu, sevdiyi kitabları alırdı, çox sevdiyi Azərbaycandan Türkiyəyə göndərdiyi də kitab idi.

Abdullah Kahraman yalnız din elmləri ilə bağlı kitabları oxumurdu. O, türk tarixini, türk ədəbiyyatını, incəsənəti də gözəl bilir, müqəddəs türk sazını, insana ruh verən xalq türkülərini bütün varlığı ilə sevir, onları dinləyir və yeri gələndə sevə-sevə oxuyurdu. Onun çox güclü yaddaşı var, türk ədəbiyyatından, ərəb ədəbiyyatından sevdiyi şairlərin şeirlərini əzbər bilirdi və bu şeirləri gözəl söyləyirdi, özü də çox təbii şeirlər yazırdı.

Professor Abdullah Kahraman çox çalışqan bir alimdir. Mən onun boş vaxtını görmədim. O, hər zaman çalışar, oxuyar, yazar, vaxtın qədrini bilər və çalışanları çox sevdiyini söyləyərdi. Əgər ondan bir elmi məsələ ilə bağlı bir şey soruşsa idin, dərhal nəyin harada olduğunu sənə söyləyərdi, səni doğru qaynaqlara yönəldərdi.

Professor Abdullah Kahraman həm gerçəkçi, həm də idealist yönü öz şəxsiyyətində birləşdirir. O, yeri gələndə sərt, yeri gələndə çox kövrək idi. O, türklüyü, müsəlmanlığı ilə fəxr edir, vətən və bayrağını çox sevir, ibadətlərini sevə-sevə yerinə yetirməyi bir borc və şərəf işi saydığını söyləyirdi.

Professor Abdullah Kahraman gözəl müəllimdir. O, dərin elmini sevə-sevə tələbələrinə anladır, onlara elm öyrətməkdən zövq alır və tələbələrinə elmi sevdirməyi bacarır, onlara qayğı göstərir. Onun gözəl şərh üsulu, anlatma bacarığı, metodu, canlı, anlaşıqlı dili var. O, ən çətin elmi məsələləri çox sadə yolla tələbəyə öyrətməyi bacarır. Əziz dostum hər zaman söyləyirdi ki, müəllimliyin əsası fədakarlıqdır. Elə buna görə də Abdullah Kahraman tələbələrin yaddaşında dərin iz qoymuşdur.

Abdullah Kahraman ədalətli bir insandır. O, heç zaman bir kimsənin haqqını yemədi, hər zaman haqqı, doğru olanı müdafiə etdi. O, dostluğu çox yüksək qiymətləndirir, dostluq etməyi, dostluğu qorumağı bacarır və dostluğun ölçüsünün vəfa, sədaqət olduğunu söyləyirdi.

Abdullah Kahraman valideynlərini çox sevir, onlara qayğı göstərirdi. Allahın rəhmətinə qovuşmuş əziz anası Reyhan xanımdan (uca Allahın rəhməti, bərəkəti və salamı onun üzərinə olsun) göz yaşları içərisində danışırdı. O, anasına elə səmimi bir əsər yazmışdır ki, çox səmimi söyləyirəm ki, mən ədəbiyyatçı olsam da, belə əsərləri az oxumuşam. Mən onun bu duyğu dolu, sevgi yüklü, içləri yandıran ana öygüsünü göz yaşları içərisində dinlədim. Bir vaxtlar əziz Reyhan xanım sevimli oğlu Abdullaha

sevə-sevə layla çalmışdı, o halal süd əmmiş oğlu da bu gözəl əsəri ilə əziz anasına bir yanğılı layla çalmış oldu. Abdullah Kahraman övladlarının oxumasını, elmli olmasını istəyir, dinin qızların oxumasına böyük önəm verdiyini söyləyir və sevimli oğlu Məhəmmədin hafiz olmasını arzulayırdı.

Professor Abdullah Kahraman çox sevdiyi Azərbaycanda din elminin inkişafında, dini kadrların hazırlanmasında, sağlam elmi-dini mühitin yaranmasında, bir sıra dini kitabların və din alimlərinin tanıdılmasında, Azərbaycanla Türkiyə arasında elmi əlaqələrin qurulmasında da önəmli işlər gördü. O, bacarıqlı idarəçi kimi özünü təsdiq etdi, Bakı Dövlət Universitetinin ilahiyyət fakültəsinin və Bakı Türk Liseyinin tədris binalarının yenidən və əsaslı təmir olunmasında önəmli rol oynadı. Mən inanıram ki, ədalətli Azərbaycan türkləri onu heç vaxt unutmayacaq.

Abdullah Kahraman bütün yönləri ilə bir təbii, dadlı Anadolu türküdür. O, mənə görə Osmanlı ruhundan qidalanan, türklük qaynağından su içən bir unudulmaz saz havasıdır, bir bayatıdır. Sivasın duru, axar, buz kimi soyuq, içdikcə ruha dad verən bərəkətli suyudur. Bayburt ellərinin qəhrəmanlıq türküsüdür. Əziz can dostum, səni çox sevirəm, sənə hər zaman dua edirəm, əziz anan Reyhan xanımın südü sənə halal olsun deyirəm, uca Allahın (c.c) rəhməti, bərəkəti və salamı sənin və ailənin üzərinə olsun. Canım səni və tək oğlun Məhəmmədi hər zaman arzular. Dua edirəm ki, uca Allah (c.c) tezliklə bizi görüşdürsün. Burada göz yaşlarım yazıma nöqtə qoydu…

**Siraceddin Hacı**

## BİR ELM XADİMİ KİMİ ABDULLAH KAHRAMAN

Abdullah müəllimlə mənim tanışlığımın o qədər də uzun bir keçmişi yoxdur; iki il olar ya olmaz. Bir insan haqqında yaranan ilk qənaət çox əhəmiyyətlidir. Bəzən yaxşı bir insan haqqında yaranan ilk mənfi təəssüratı uzun müddət düzəltmək olmur, yaxud əksinə. Çox vaxt bu qənaət münasibət davam etdiyi müddətcə dəyişməz. Abdullah müəllimlə ilk dəfə bir dostumun otağında qarşılaşdım. İlk qənaətim də belə oldu: bu insan həqiqətən kitab aşiqidir. Kitabdan söz düşəndə çox həvəslə söhbətə qoşulub, diqqətini çəkən əsərləri ya da məqalələri bir an əvvəl əldə etmək istəyi yüksəkdir. Sonralar daha yaxından tanış olanda gördüm ki ilk təsüratım məni yanıltmıyıb. Abdullah müəllim kitab oxumağı çox sevən bir insandır. Bunun nəticəsində də güclü bir araşdırmacı ruhu qazanmışdır. Elmi həyatının fəallığını onun hal-tərcüməsinə baxaraq anlamaq mümkündür. Xüsusilə Fiqh elmi sahəhisindəki geniş biliyi və bir fəqihə layiq düşünmə tərzi qibtə ediləcək səviyyədədir.

Abdullah müəllimin digər gözəl xüsusiyyəti də fəallığıdır. İnsanların çoxu işlərin çoxluğundan şikayət edər və yorğunluğunu çox işləməklə izah edər. Abdullah müəllim isə sanki boş durduğu zaman yorulan bir insandır. Yeni fakültə binamızın təmiri, fakültə dərsliklərinin hazırlanması, gündəlik qarşıya çıxan problemlərin həllində bunu hamı görürdü. Hər hansı bir şəxsi məsələnin həlli haqqında ona müraciət etdiyim zaman o qədər çox işin arasında şəxsən mənə lazımi vaxtı ayırdığını heç unutmaram.

Abdullah müəllimlə olan qısa müddətli həmkarlığımın uzun illər davam etməsini çox arzu edirəm və buna da əlimdən gəldiyi qədər çalışıram. Allahdan niyazım odur ki, Abdullah müəllim o çox düşkün olduğu ailəsi ilə birlikdə uzun və xöşbəxt illər yaşasın.

**BDU İlahiyyat fakültəsi müəllimi**
**Mübariz Camalov**

## MÜƏLLİMİM VƏ DOSTUM

Açıq etiraf edim ki, Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsində dərs demiş müəllimlərdən heç biri ilə Abdullah Qəhraman qədər ünsiyyətdə olmamışam. Ümumiyyətlə, həm Azərbaycandan, həm də Türkiyədən olan müəllimlər arasında ən gözəl münasibət qurduğum insan Abdullah Qəhramandır. Halbuki, bu gözəl insan mənə dərs deməyib, tale elə gətirib ki, mən fakültəni bitirdikdən sonra o, dekan müavini təyin edilib. Amma Abdullah Qəhramanı həmişə özümə müəllim və dost saymışam. Bu baxımdan o, müəllimlərim arasında dostluq etdiyim yeganə insandır.

Fakültədə çoxları məni millətçi, türkçü tələbə kimi tanıyıb və elə bir müəllimim olmayıb ki, onunla bu mövzuda söhbət etməyək. Amma nədənsə bu mövzuda söhbətlərim daha çox Abdullah Qəhramanla tuturdu. Bəlkə də, ona görə ki, Abdullah müəllim Dədə Qorqud diyarı olan qədim Anadolu yurdu Bayburt elindən idi. Hətta diplom işimin mövzusunun «Kitabi-Dədə Qorqud eposunda Tanrı inancı» olduğunu biləndə çox sevindi və məndən onun mətnini istədi.

Fakültəni bitirsəm də, Abdullah müəllimin dekan müavini kimi üç illik fəaliyyətini yaxından izləmişəm, istər mətbuatda, istərsə də Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində çalışdığım müddətdə onun təkcə fakültəmiz deyil, həm Azərbaycan, həm Türkiyə, həm də Azərbaycan-Türkiyə qardaşlığının gücləndirilməsi üçün gördüyü işlərin şahidi olmuşam və fikirləşmişəm ki, iki dövləti olan bu böyük millətin hər zaman diri və iri olması üçün QƏHRAMAN ABDULLAHlara ehtiyacı var.

Üç il ərzində Abdullah müəllimlə az da olsa, birgə işlərimiz də olub. Həmin işlərin arasında böyük İslam alimi Məhəmməd Həmdullahın «İslama giriş» əsərinin Azərbaycan dilinə tərcüməsini xüsusi qeyd etmək istəyirəm. Bu əsərin tərcüməsi zamanı həm də gözəl bir insanı, əsl ziyalı Siracəddin Hacını yaxından tanıdım və buna görə Abdullah müəllimə həmişə minnətdar olacağam.

Abdullah Qəhraman haqqında yazarkən başqa bir müəllimimi – Mustafa Altundağı xatırlamamağım mümkün deyil. Çünki məni Abdullah Qəhramanla tanış edən və ona «tapşıran» Mustafa müəllim olub.

Mustafa Altundağ məni Abdullah müəllimə təqdim edərək «Gündüzü sizə əmanət edirəm, onun kimiləri azdır» - dedi və bu sözdən sonra Abdullah müəllim bir-birimizi yaxından tanıyanadək bir dəfə də olsun mənə etimadsızlıq göstərmədi.

Mənə həmişə elə gəlib ki, Abdullah Qəhraman gözəl müəllim olmaqla yanaşı, həm də bacarıqlı idarəçidir. Bu baxımdan əminəm ki, o, idarəçilik sahəsində daha yüksək vəzifələrin öhdəsindən gələ bilər və inanmaq istərdim ki, gözəlim Türkiyə Abdullah müəllimə layiq olduğu etimadı göstərəcək.

**Gündüz İSMAYILOV,**
**Azərbaycan Respublikası Dini Qurumlarla**
**İş üzrə Dövlət Komitəsinin şöbə müdiri**

## GÖK KUBBEDE HOŞ BIR SADA BIRAKTI

Muhterem Abdullah Hocamla Azerbaycan'a geldiğim ilk günlerde tanıştım. Ehli ilim üstad, daha ilk karşılaşmamızda samimi, candan, sempatik, olduğunu ortaya koymuş, kaynaşıp dertleşmiştik.

Tek millet olduğumuz Azeri kardeşlerimize hizmet için, vatanından ve sevdiklerinden uzaklarda, bilgi, beceri ve tecrübelerini paylaşmak üzere geldiği Azerbaycan da zor şartlara rağmen sınırlı görevini başarıyla tamamlamış, bu gök kubbede hoş bir sada bırakmıştır.

Kendisini yardımsever, candan, samimi, gerektiğinde otoriter, kendini değil işini düşünen, kişilere değil, kurumlara önem veren bir kişiliğe sahiptir. Edep, terbiye insani ilişkilere ehemmiyet veren, kendine taş atana ekmek atacak kadar da ahlaki meziyette gerektiğinde de dik durmasını bilen bir celale sahiptir.

Engellerden yılmadan, şahsi ve ufak hesaplar peşinde olmadan, bu husustaki oluşumlara da pirim vermeyen, doğru bildiği yolda , maksada ilme ve hedefe ulaşmak için çalışan bir ilim adamıdır. Allah'ın rızasını önde tutup, riya yapmadan, tartışmalardan uzak iş bitiren bir özelliğe sahip olarak tanıdı.

Sayın Hocamızın el marifetleri de bir başkadır. Bakü de hoş bir baharat, gök kubbeye yapışmayan, çiğ köfte muhabbetleri tatlı bir anı olarak hatıralarda kalacaktır.

İyi ki yolun uğramış Kafkaslara diyor; kendisine ailesi ve dostlarıyla birlikte hayırlı uzun ömürler dilerim. Saygılarımla...

Bakü / Kasım 2007

**Adem TINIK**
Bakü İlahiyat Fakültesi Camisi
Din Görevlisi

## HAKİKİ DOST FEDAKAR İNSAN

Kendisini tanimaktan, beraber calismaktan, bilgi ve tecrübesinden faydalanmaktan şeref duydugum degerli büyügüm, aziz insan, hakiki dost ABDULLAH KAHRAMAN.

En ozel selam, saygi, hasret, hurmet ve muhabbetler sizin olsun.

Abdullah hocamla ilk kez Azerbayacan geldigi gun havaalaninda karsilsatigimiz zaman uzerinde ciddi bir tedirginlik ve ne olacak belirsizligi goruntusu var idi. Fakat aradan bir ay gecince o belirsizlik ve tedirginlik yerini hizmete,fedakarliga ve muthis bir sosyallige birakti.

Uc yil sureyle Abdullah hocamla beraber onun Önderliginde calisirken ondan hayata dair cok seyler ogrendim.

Hayatimda tanidigim cok yonlu nadir insanlardan biri olarak faydali olabilme, guvene layik olabilme adina ne kadar samimi, fedakar ve duygusal oldugunu musahade ettim.

Gerek temsil ettigi misyonun sorumluluklarini yerine getirmede gerekse cok yonlu ilmi, ahlaki, kulturel ve sosyal kimligini paylasma konusunda ne kadar ozel bir insan oldugunu gordum.

Abdullah hocam bizim gozumuzde, gonlumuzde her konuda kendisini cok iyi yetistirmis, her ortamda istenilen konuda soz diyebilen ve ihtiyac duyulan bilgiye cevap verebilen ozel ve tanidigim nadir insanlardan biridir.

Bilgi birikimine hayranlik duymanin yaninda, onunla calismak, onunla istisare etmek,onun nasihatlerini dinlemek ve onu ornek almak bizim icin buyuk bir kazanctir.

Abdulah hocam iyi bir insan,iyi bir alim, iyi bir aile babasi, hakiki bir dost ve sevgi dolu, hosgoru temsilcisi degerli bir buyugumuzdur.

Tanimak ve bareber calismak benim icin ne kadar onurlu ve heyecanli idiyse,mekansal anlamda bile olsa ondan ayri kalmakta ayni sekilde huzun,hasret ve kayiptir.

Oglum altayturanin dedesi ve kirvesi olan aziz hocam, degerli buyugum. Her zaman tavsiye ve nasihatlarinizi bekler, sizlere serefli, saglikli huzur ve mutluluk dolu bir omur,aile saadeti ve iki dunya xostbahligi arzuluyorum.

**Kadir Bektaşoglu**
**TDV Bakü Türk Lisesi Müdiri**

## GÖZEL İNSAN ABDULLAH MÜELLİM

Abdullah müellim BDU nun İlahiyat fakultesinde dekan muavini islediği dövrde TDV Baku Türk Liseyinin fealiyeti ile de yaxindan maraglanır problemlerin hallolunmasına calısırdı. İlahiyet Fakultesinin binası ile yanası Lisey binasının tamirinde, islerin vaxtında ve keyfiyyetle yerine getirilmesinde o, cox eziyyet cekirdi.

Abdullah mellim genis dunya görüslü adam, marakli hemsohbet idi. Liseyin bütün tedbirlerinde muellimler ve sagirtler garsısında mezmunlu cıxıslar edirdi. Her cıxısına gulak asanda biz ondan ne ise öyrenirdik. Abdullah muellim gözel ilahiyatcı alim idi. İslam degerlerinden numuneler göstererek musahibini inandırabilir, fikrini esaslandırırdı. Onunla sohbet etmek cok xos idi ve adama yüngüllük ,yaxsi ahvali-ruhiye verirdi.

Abdullah muellim indi Turkiyede calışır. O Azerbaycan tehsil sahesinde cox ehemmiyetli işler gördü. Bütün bunlara göre ona sagirtlerimiz, valideynlerimiz, muellimlerimiz adından çox sagolun deyir, can sagligi, xoşbextlikler arzulayıram.

Derin hormetle,

**Yahya SERİFOV**
TDV Baki Turk Liseyi Mudur Muavini,
Fizika Muellimi, Fizika-Riyaziyat ilimleri namzedi